**AZƏRBAYCANRESPUBLİKASI**

*Əlyazması hüququnda*

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİM NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ İŞİN SİSTEMİ

İxtisas**:** 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elmsahəsi: Pedaqogika

İddiaçı: **Könül Vaqif qızı Mikayılova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2024**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil İnstitutunun “Təhsilin nəzəriyyəsi və tarixi” şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Pedaqoji elmlər doktoru, professor
**Vidadi Cəmil oğlu Xəlilov**

Rəsmi opponentlər: pedaqoji elmlər doktoru, professor
**Hikmət Əbdül oğlu Əlizadə**

pedaqogika elmləri doktoru, professor
**Şəhla Qasım qızı Əliyeva**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Nigar Eldar qızı Zeynalova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

FD 2.15 Dissertasiya Şurasının sədri: __________ Tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

FD 2.15 Dissertasiya Şurasının elmi katibi: __________ Pedaqogika üzrə fəlsəfə doktoru, dosent **Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: __________ Pedaqoji elmlər doktoru, professor
**Fərrux Abbas oğlu Rüstəmov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Təhsil sistemi hər zaman elmə, xalqın milli-mənəvi dəyərlərinə əsaslanaraq bilik, bacarıq və vərdişlərə yiyələnən, yaradıcı və müstəqil düşünən, demokratik prinsipləri əsas tutan şəxsiyyətin mənəvi zənginliyinə istiqamətlənib. Təhsil sistemində qiymətləndirmə isə təhsilin keyfiyyətini və effektivliyini müəyyənləşdirən bir prosesdir. Bu proses təhsil standartlarının tətbiqi mexanizmini izləmək və fərdi ehtiyacları öyrənməklə, təhsil sisteminin təkmilləşdirilməsini və davamlı inkişafını təmin edir. Bu baxımdan da qiymətləndirmə bütün təhsil sferasında öz aktuallığını qoruyub saxlayır.

Tədqiqatın aktuallığından bəhs edərkən qeyd etməliyik ki, "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı"[1], "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)"[2], "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası[3], "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"[4], "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"[5] və digər normativ hüquqi sənədlər təhsilin məzmununun müasir dövrün tələblərindən irəli gələrək ilbəil yenilənməsini tələb edir. Bu tələblər Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası prosesini sürətləndirir.

Təqdim etdiyimiz tədqiqat işi inteqrasiya prosesində qarşıya çıxan problemləri və çətinlikləri müəyyənləşdirməyə, aradan qaldırmağa və ehtiyacların öyrənilməsində məlumat toplusu, eləcə də təlim

---

[1]Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı (15 iyun 1999). URL: https://e-qanun.az/framework/5363

[2]"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)". URL: https://www.anl.az/down/meqale/az_muellimi/2010/iyun/122663.htm

[3]"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. URL: https://e-qanun.az/framework/25029

[4]Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". URL: https://president.az/az/articles/view/9779

[5]Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. URL:https://e-qanun.az/framework/27274

prosesinin effektivliyini ölçmək üçün qiymətləndirmə aləti kimi tətbiq edilə bilər.

Tədqiqatın aktuallığından bəhs edərkən nəzərə alınmışdır ki, XXI əsrdə elmi-texniki tərəqqinin surətli inkişafı, informasiya-komunikasiya texnologiyalarının və iqtisadi qloballaşmada kapitalın diffuziyası bütün sahələdə olduğu kimi təhsilə də əsaslı təsir göstərir. Təhsilin məzmununu formalaşdıran akademik və praktik biliklərə yeni yanaşmalar tələb olunur.

Təlim nailyyətlərinin qiymətəndirilməsi yeni məqsədlər qoymaq və inkişafı stimullaşdırmaq üçün hədəflərə doğru istiqamətlənir, öyrənmənin aktiv və interaktiv olmasını, eləcə də kiçikyaşlı məktəblilərin daha çox özünəməxsus və effektiv şəkildə öyrənmələrini stimullaşdırır.

Tədqiqatın aktuallığını şərtləndirən cəhətlərdən biri də tədris prosesində məzmun standartlarını əhatə edən bəhs və bölmələr üzrə zəif mənimsəmənin aradan qaldırılmamasıdır ki, bu da akademik nailiyyətlərə mənfi təsir göstərir. Sübut olaraq IV sinif şagirdlərinin oxuyub anlama bacarıqlarının qiymətləndirilməsi məqsədilə Beynəlxalq Qiymətləndirmə Assosiasiyası tərəfindən beş ildən bir həyata keçirilən PİRLS (Progress in International Reading Literacy Study) qiymətləndirmə nəticələrini qeyd etmək olar. Belə ki, 2011-ci ildə Azərbaycan 45 ölkə arasında 462 balla 37-ci, 2016-cı ildə 50 ölkə arasında 472 balla 39-cu, 2021-ci ildə 440 balla 55 ölkə arasında 35-ci sırada yer almışdır[6].

Təlim prosesində məzmun standartlarını əhatə edən bəhs və bölmələr üzrə zəif mənimsəmənin aradan qaldırılmaması ibtidai təhsil pilləsində valideynlərin kütləvi olaraq repetitorlara müraciət etməsinə də zəmin yaradır[7]. Bu da məktəbdə davamiyyətin müntəzəmliyinə, təlimin effektivliyinə və ailə büdcəsinə öz təsirini göstərir.

İbtidai təhsil pilləsində "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" (TNQ) modeli bu kimi problemlərinhəlli istiqamətində yeni mexanizm kimi təqdim olunur.

---

[6] IEA's Progress in International Reading Literacy Study - PIRLS 2021. Downloaded from https://pirls2021.org/results

[7] Azərbaycanda fantastik repetitorluq qiymətləri. URL:https://konkret.az/azerbaycanda-fantastik-repetitorluq-qiymetleri-cedvel/

Tədqiqatın işlənmə dərəcəsi üzrəelmi-pedaqoji və psixoloji ədəbiyyatlar araşdırılmışdır. Tədqiqatçı alimlərdən Y.R.Talıbovun, Y.Ş.Kərimovun, Ə.Ə.Əlizadənin,Ə.S.Bayramovun, Ə.Ə.Ağayevin, A.O.Mehrabovun, Ə.X.Paşayevin, H.Ə.Əlizadənin, A.N.Abbasovun, F.A.Rüstəmovun, R.İ.Əliyevin, H.H.Əhmədovun, Ə.M.Abbasovun, İ.A.Cavadovun və E.B.Bəylərovun problemlə bağlı fikirlərinə istinad olunmuşdur. Xarici ölkə tədqiqatçılarından L.S.Vıqotski, Y.K.Babanski, M.N.Skatkin, D.B.Elkonin, Ş.A.Amonaşvili, A.Q.Asmolov, B.Bayber, E.A.Qolubeva, İ.Y.Lerner, D.Djenkinz, L.D.Kronbax, D.Nevanın əsərləri tədqiqata cəlb olunmuşdur.

Beynəlxalq qiymətləndirmə tədqiqatlarından İSO 29990 Təhsil Xidmətləri, İSO 9001 Keyfiyyət İdarəetmə Sistemi, CEFR, AQA Standart, CAEPStandart, PİSA, TIMSS, PIAAC, ICCS, TALIS, ICILS və s. kimi tədqiqatlar tədqiq olunmuşdur.

Tədqiqatın işlənmə dərəcəsi üzrə inkişaf etmiş ölkələr üzrə ABŞ, Almaniya, İsveçrə, Böyük Britaniya, Fransa, Yaponiya və inkişaf etməkdə olan region ölkələr üzrə Türkiyə, Rusiya,Qazaxıstanın ümumi təhsilin Dövlət standartları və Almaniyanın DeGEval, İsveçrənin SEVAL, Böyük Britaniyanın UKES, Fransanın SFE qiymətləndirmə standartları təhlil olunmuşdur.

Tədqiqatın işlənmə dərəcəsi üzrə ölkəmizdə aparılan tədqiqatlarda tədqiq olunmuşdur. Azərbaycan Respublikasının Təhsil İnstitutunun 2023-cü ildə apardığı "Məktəbdaxili qiymətləndirmə: Formativ qiymətləndirmənin rəqəmsallaşdırılması"[8] adlı tədqiqatın nəticələrinə görə 98,7% müəllim tədris prosesində öyrənmə prosesinin davamlı izlənilməsini, eləcə də şagirdlərin öyrənmə prosesini tənzimləyən formativ qiymətləndirmədən istifadə etdiyini təsdiqləmişdir. Lakin "Formativ qiymətləndirməni necə aparırsınız?" sualına müəllimlərin cavabı ümumi olmuş və formativ qiymətləndirmənin effektivliyini 59% müəllim yaxşı, 27% müəllim əla olaraq dəyərləndirmiş-

[8]Məktəbdaxili qiymətləndirmə: Formativ qiymətləndirmənin rəqəmsallaşdırılması.https://arti.edu.az/2023/06/24/m%C9%99kt%C9%99bdaxili-qiym%C9%99tl%C9%99ndirm%C9%99-formativ-qiym%C9%99tl%C9%99ndirm%C9%99nin-r%C9%99q%C9%99msallasdirilmasi-2/

dir. Buda apardığımız cari tədqiqatın nəticələri ilə eynilik təşkil etmişdir.

**Tədqiqatın obyekti** kiçikyaşlı məktəblilərin təlim prosesidir.

**Tədqiqatın predmeti** kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi üzrə işin təşkili sistemidir.

**Tədqiqatın məqsədi** kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsinin elmi-pedaqoji əsaslarını, mexanizmlərini müəyyənləşdirmək, təlim nailiyyətlərinin qiymətləndirilməsinin imkan və yollarını, tətbiqi texnologiyalarını irəli sürmək və əsaslandırmaqdır.

**Tədqiqatın vəzifələri:**

- kiçikyaşlı məktəblilərdə təlim nailiyyətlərinin qiymətləndirilməsi işinin mahiyyətini müəyyənləşdirmək,qiymətləndirmənin təşəkkülü və inkişaf tarixini araşdırmaq, problemi elmi-pedaqoji ədəbiyyatda təhlilə cəlb etmək, problemlə bağlı məktəblərdə mövcud vəziyyəti öyrənmək;
- problemi ümumi təhsilin dövlət standartları və qiymətləndirmə standartlarında araşdırmaq, prinsiplər irəli sürmək, təlim nailiyyətlərinə təsir edənpedaqoji, psixoloji, fizioloji və sosioloji amilləri müəyyənləşdirmək;
- "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" modelini nəzəri baxımdan əsaslandırmaq, TNQ modeli əsasında formativ qiymətləndirmənin tətbiqi texnologiyalarını izah etmək;
- təcrübi-eksperimental iş prosesində kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi yollarının səmərəliliyini yoxlamaq.

**Tədqiqatın metodları:**

1. Nəzəri tədqiqat metodunun köməyilə tədqiqatla bağlı dövlətin təhsilə dair qərarları, elmi-kütləvi əsərlər, metodik vəsaitlər, konfrans, seminar, treninq, elektron resurslar təhlil olunub. İnduksiya vasitəsilə hadisələr arasında səbəb əlaqələri, deduksiya vasitəsilə əqli nəticələrin ümumi faktlardan xüsusiyə doğru ümumiləşdirilməsi həyata keçirilmişdir.

2. Empirik tədqiqat metodlarından müşahidə, test, anket sorğusu, müsahibə, pedaqoji eksperiment aparılmışdır.

Müşahidə. Məqsəd təlim prosesində müəllimin formativ qiymətləndirmə üsullarından və vasitələrindən istifadə etməsinə dair məlumat toplamaq olmuşdur. Bu məlumatlar digər tədqiqat metodları ilə birlikdə nəticələr çıxarmağa kömək göstərmişdir. Müşahidə Bakı şəhər 7, 12, 18, Ağdam şəhər 24, 26, 49, Şuşa şəhər 20 nömrəli məktəblər olmaqla 3-cü və 4-cü siniflərdə aparılmışdır.

Test. Məqsəd mənimsənilən məzmunla bağlı kiçikyaşlı məktəblilərin bilik və bacarıqlarının qiymətləndirilməsi olmuşdur. Şəhər və rayon məktəblərini əhatə edən testlər orta ağırlıq dərəcəsində tərtib olunmuşdur. Testlər tərtib edilərkən testin əvvəlindəki suallar aid olduqları mövzuların sadə çalışmaları, testin sonundakı suallar isə aid olduqları mövzuların nisbətən çətin çalışmaları kimi verilmişdir. Azərbaycan dili və riyaziyyat fənlərini əhatə edən testlər II siniflər üzrə 10, III və IV siniflər üzrə isə 12 sualdan ibarət olmuşdur. Test yoxlama işləri Mingəçevir, Gəncə, Şəki və Sumqayıt şəhərlərində məskunlaşan Şuşa şəhər 20, Xocalı şəhər 3, Qubadlı şəhər 2, Kəlbəcər şəhər 87, 25 nömrəli, Ağdam şəhər 24, 26, 49, 68, 150 nömrəli, Sumqayıt şəhər 18 nömrəli, Bakı şəhər 7, 12, 18, 32 nömrəli məktəblərin II, III və IV siniflər olmaqla 431 şagirdi əhatə etmişdir.

Anket sorğusu. Mövcud vəziyyəti öyrənmək, problemi müəyyənləşdirmək və nəticələrin doğruluğunu təsdiqləmək məqsədilə anket sorğularından istifadə olunmuşdur. Anket sorgularında 1-ci blok suallar respondentlərə dair məlumatlar, 2-ci blok suallar tədqiqat mövzusuna dair məlumatların üzə çıxarılması, 3-cü blok suallar isə alınmış məlumatların dəqiqliyinin yoxlanılması məqsədini daşımışdır. Anket sorğuları qapalı və açıq suallar əsasında tərtib olunmuşdur. Qapalı suallar dixatom (hə, yox), laykert (çox razıyam, razıyam, narazıyam, çox narazıyam, cavab verməkdə çətinlik cəkirəm) tipli cavablar əsasında təqdim edilmişdir. Tədqiqat üzrə anket sorğuları ümumən 206 valideyni, 154 müəllimi, 6 məktəb direktorunu və 118 şagirdi əhatə etmişdir.

Müsahibə. Məzmun standartlarını əhatə edən mövzular üzrə zəif mənimsəmənin necə aradan qaldırıldığına dair ibtidai sinif müəllimləri ilə aparılan müsahibənin nəticələri problemlə bağlı mövcud vəziyyətin öyrənilməsinə dəstək olmuşdur. Müsahibə 21 ibtidai sinif müəllimini əhatə etmişdir.

Pedaqoji eksperiment. Eksperimentin müəyyənedici mərhələsində mövcud vəziyyət öyrənilmiş, öyrədici mərhələsində "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" (TNQ) modeli üzrə iş sistemi tətbiq edilmiş, yoxlayıcı mərhələsində model üzrə iş sisteminin nəticələri müəyyənləşdirilmişdir. Eksperimentə Bakı şəhəri üzrə 179 və 246 nömrəli məktəblər cəlb olunmuşdur.

3. Riyazi tədqiqat metodlarının köməyilə tədqiqatın modeli yaradılmış,informasiyanın dəqiqliyi yoxlanılmış, SPSS və EXCELL proqramlarında müqayisəli və statistik təhlillər aparılmış, fakt və hadisələr qiymətləndirilmişdir.

Müdafiəyə çıxarılan əsas **müddəalar**.

1. Təlim nailiyyətlərinin qiymətləndirilməsi müəllim və şagird arasında əks-əlaqəni tənzimləməklə tədrisin effektivliyini artıra bilər.

2. Tədris prosesində pedaqoji amillərlə yanaşı, fizioloji, psixoloji və sosioloji amillərin qiymətləndirilməsi təlim nailiyyətlərinə müsbət təsir göstərə bilər.

3. İbtidai siniflərdə bilik və bacarıqların qiymətləndirməsi ilə özünüqiymətləndirmənin qarşılıqlı əlaqəsinin təmin edilməsi müəllimin və şagirdin innovativ fəaliyyətini artıra bilər.

4. "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" (TNQ) modeli təlimin düzgün istiqamətləndirilməsini və inkişfını təmin edə bilər.

Tədqiqatın **elmi yeniliyi** ondan ibarətdir ki, kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsinin elmi-pedaqoji əsasları və mexanizmləri müəyyənləşdirilmiş, "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" modeli hazırlanmış, formativ qiymətləndirmənin tətbiqi texnologiyaları üzrə müvafiq təkliflər irəli sürülmüşdür.

Tədqiqatın **nəzəri əhəmiyyətini** təlim nailiyyətlərinin qiymətləndirilməsi prinsipləri, qiymətləndirmə texnologiyaları üzrə işin sistemi, yeni yanaşma olaraq "Təlim nailiyyətlərinin qiymətləndirilməsi modeli" təşkil edir.

Tədqiqatın **praktik əhəmiyyəti** ondan ibarətdir ki, "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" modelinin texnologiyası gələcək tədqiqatçılar üçün təcrübə mənbəyi, tədqiqatda irəli sürülülmüş qiymətləndirmə vasitələri və alətləri məktəb müəllimləri və bu peşəyə yiyələnmək istəyən şəxslər üçün məlumat bazasıdır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın məzmunu, elmi ideyalar və alınan nəticələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının müəyyənləşdirdiyi jurnallarda öz əksini tapıb.Tədqiqat işi üzrə 11 elmi məqalə (1-i xaricdə), respublika və beynəlxalq konfrans materiallarında 10 tezis (1-i xaricdə), 1 metodik tövsiyə dərc olunmuşdur.

**Tədqiqatın tətbiqi mərhələləri**.

Birinci mərhələdə (2015-2016) - problem üzrə mövcud elmi-pedaqoji ədəbiyyat, dövlət sənədləri təhlil olunmuş və nəzəri problemlər ümumiləşdirilmişdir.

İkinci mərhələdə (2016-2017) – problemlə bağlı mövcud vəziyyətin öyrənilməsi məqsədilə ibtidai siniflərdə test, anket, müşahidə, müsahibə aparılmışdır. Toplanmış məlumatlar emal olunmuş, məlumatların dəqiqliyi yoxlanılmış, testlər və anket sorğuları təhlil edilmişdir.

Üçüncü mərhələdə (2017-2018) – təlim nailiyyətlərinin qiymətləndirlməsi mexanizmlərinin və irəli sürülmüş fərziyyələrin yoxlanılması məqsədilə pedaqoji eksperiment aparılmışdır. Birinci mərhələdə məzmun standartlarının mənimsənilməsi prosesinin izlənilməsi, formativ qiymətləndirmənin tətbiqi zamanı çətinliklərin müəyyənləşdirilməsi, ikinci mərhələdə "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" (TNQ) modeli üzrə öyrədici eksperimentin tətbiqi, üçüncü mərhələdə pedaqoji təcrübə məlumatlarının ümumiləşdirilməsi aparılmışdır.

Dördüncü mərhələdə (2018-2024) – respublika və beynəlxalq təhsil (UNESCO, Wordbank, OESD) təşkilatları tərəfindən qiymətləndirilmə sahəsindəki dəyişikliklər, yeniliklər və əldə olunan nəticələr ümumiləşdirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikasının Təhsil İnstitutunun "Təhsilin nəzəriyyəsi və tarixi" şöbəsi.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, 10 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 7 səhifə, 13062 işarə, I fəsil – 54 səhifə, 78032 işarə (1.1. – 12 səhifə, 18837 işarə; 1.2. – 14 səhifə, 26165 işarə; 1.3. – 16 səhifə, 23916 işarə; 1.4. – 12 səhifə, 9114 işarə), II fəsil – 48 səhifə, 73802 işarə (2.1. – 17 səhifə, 38835 işarə;

2.2. – 27 səhifə, 30575 işarə; 2.3. – 4 səhifə, 4392 işarə), III fəsil – 31 səhifə, 34917 işarə (3.1. – 5 səhifə, 5133 işarə; 3.2. – 15 səhifə, 17994 işarə; 3.3. – 11 səhifə, 11817 işarə), nəticə 2 səhifə, 3095 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı 12 səhifədən ibarət olmaqla dissertasiyanın ümumi həcmi 166 səhifə, 202908 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli **“Kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsinin elmi-pedaqoji əsasları”** adlanır. Fəsil 4 paraqrafdan ibarətdir.

Birinci paraqraf “Kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi işinin mahiyyəti” adlanır.

Kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi işinin mahiyyəti dedikdə başlıca, əsas və müəyyənedici tərəflər nəzərdə tutulur. Yəni mahiyyət sözü də elə “obyektin başlıca, əsas və müəyyənedici tərəfidir və obyektin inkişaf meyllərini göstərir”.

Təlim nailiyyətlərinin qiymətləndirilməsinin mahiyyəti nəzəri və praktik əməliyyatlar aparmaqla, hadisələr arasında səbəb əlaqələrini öyrənir. Çünki mahiyyət ilə hadisələr bir-birinə uyğun gəlməyə də bilər. Məsələn, kənardan hər hansı bir sinif otağını seyr etdikdə orada tədris prosesinin həyata keçirildiyi görüntüsü yaranır, bu bir hadisədir.Lakin əsil mahiyyət o tədrisin necə həyata keçirilməsidir.

Ümumiləşdirilmiş nəticə: Kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi işinin mahiyyəti ondan ibarətdir ki, şagird tələbatları öyrənilir, bəhs və bölmələr üzrə məzmun standartlarının mənimsənilməsi müəyyənləşdirilir, təlim prosesinin təkmilləşdirilməsi təmin olunur. Qiymətləndirmə texnologiyaları isə bütün bu proseslər arasındakı əks əlaqəni təmin edir.

İkinci paraqraf“Qiymətləndirmənin təşəkkülü və tarixi inkişaf mərhələsi” adlanır. Paraqrafda tədqiq olunan məsələ aşağıdakı mərhələlər üzrə araşdırılmışdır:

1. Sözlə qiymətləndirmə.

Azərbaycan xalq pedaqogikasında sözlə qiymətləndirmənin rəğbətləndirmə və cəzalandırma formalarına çox rast gəlirik. “Kitabi Dədə Qorqud” dastanında şücaətinə görə Dədə Qorqud tərəfindən gəncə ad verilir, şəninə boy boylanır, söz söylənirdi. El məclislərində

bir-biri ilə söz yarışına girən aşıqlardan məğlub olanı həmkarına öz sazını hədiyyə edirdi. Mədrəsələrdə yüksək nəticələr əldə edən şagirdlərə Quran hədiyyə olunurdu.

2.Ballar üzrə elmi əsaslandırılmış qiymətləndirmə.

Azərbaycanda ilk dəfə pedaqoji elmdə Məhəmməd Tağı Sidqi 1892-ci ildə Ordubad şəhərində təsis və rəhbərlik etdiyi "Əxtər" məktəbində ballar sistemini tətbiq etmişdir. SSRİ Xalq Komissarları Soveti 1935-ci il tarixdə verdiyi qərara əsasən Azərbaycanda "5" ballıq sistem 1-çox pis; 2 – pis; 3 – orta; 4 – yaxşı; 5 - əla formasında həyata keçirildi.

3. Müasir qiymətləndirmə texnologiyaları.

2009-cu ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumi təhsilin milli qiymətləndirmə Konsepsiyası"nda qiymətləndirmə 4 səviyyə üzrə, 2018-ci ildən isə 100 ballıq şkala üzrə tətbiq edilməyə başladı.

4.Beynəlxalq şəbəkədə qiymətləndirmə.

İbtidai təhsil pilləsində Azərbaycan məktəbliləri ilk dəfə 2010-cu ildə PİRLS qiymətləndirmə tədqiqatlarında iştirak edib. Oxu savadlılığı üzrə 5 ildən bir həyata keçirilən PİRLS qiymətləndirmə layihəsində $1^a$, $1^b$, 2, 3, 4, 5 və 6-cı səviyyələr üzrə qiymətləndirmə aparılır.

Ümumiləşdirilmiş nəticə: Aparılan araşdırmalara əsasən qiymətləndirmənin təşəkkülü və tarixi inkişaf mərhələsində təhsilalanların bilik və bacarıqları sözlə, 5 ballıq, I, II, III və IV səviyyə üzrə qiymətləndirilib. Hal-hazırda Azərbaycan təhsilinin dünya təhsilinə inteqrasiyası prosesində 100 ballıq qiymətləndirmə şkalalası Türkiyə, İndoneziya, Kanada, Avstriya, Hindistan, ABŞ və s. kimi ölkələrlə eynilik təşkil edir.

Üçüncü paraqraf "Problemin elmi pedaqoji ədəbiyyatda qoyuluşu" adlanır. Qiymətləndirmənin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu, problemin öyrənilməsi, analiz edilməsi və həllinin tədqiqi bu sahədə məşğul olan mütəxəssislərin araşdırmalarına əsaslanıb.

Bu araşdırmalar tədqiqatın mövcud problemlərinin həllinə, tədqiq sahələrinin təhlilinə əsaslanan məlumatları təmin edir. Elmi-pedaqoji ədəbiyyatda qiymətləndirmənin sistematik tədqiqi və analizi 3 istiqamətdə araşdırılmışdı:

A. Ənənəvi qiymətləndirmə nəzəriyyəsi.

B. Milli qiymətləndirmə nəzəriyyəsi.

C. Beynəlxalq qiymətləndirmə nəzəriyyəsi.

Ümumiləşdirilmiş nəticələr: Ənənəvi, milli və beynəlxalq qiymətləndirmə nəzəriyyələrinin elmi-pedaqoji ədəbiyyatda təhlili aşağıdakı cədvəldə öz əksini tapmışdır (cədvəl 1.3.1.).

**Cədvəl 1.3.1**

**Qiymətləndirmə nəzəriyyələri**

| Ənənəvi qiymətləndirmə nəzəriyyəsi | |
|---|---|
| Üstünlüklər | Catışmamazlıqlar |
| - Ənənəvi qiymətləndirmə metodları müəyyən mövzular üzrə bilik və bacarıqları dəqiqliklə ölçə bilir.<br>- Akademik savadlılığı qiymətləndirməyə imkan verir. | - Cari qiymətləndirmə müəllimin subyektiv rəyinə əsaslanırdı və bəzən də formalizmə gətirib çıxarır;<br>- Tədris prosesinin yalnız müəyyən bir hissəsində tətbiq edilir;<br>- Qiymətləndirmə standartları mövcud deyil. |
| Milli qiymətləndirmə nəzəriyyəsi | |
| Üstünlüklər | Catışmamazlıqlar |
| - Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə, təkmilləşdirilməsinə xidmət edir.<br>- Tədris prosesinin bütün mərhələlərində tətbiq edilir və məzmun standartlarının bütövlükdə mənimsənilməsinin keyfiyyətini müəyyən edir.<br>- Şagirdin nailiyyətinin inkişafı sistemli şəkildə izlənilir.<br>-Təlim nəticələrini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. | - Milli qiymətləndirmələr, bəzi bölgələr və məktəblər üçün az resursların olması ilə nəticələnə bilər. Bu, bəzi məktəblərin nəticələrini aşağı sala bilər və məktəblərarası qeyri-bərabərliyi artırır.<br>- Milli qiymətləndirmələr bəzən tədris proqramının daralmasına səbəb ola bilər, çünki müəllimlər və məktəblər qiymətləndirmə testlərində yaxşı nəticə əldə etmək üçün xüsusi mövzulardan kənarlaşmağa meylli olurlar.<br>- Milli qiymətləndirmələr şagirdlər üçün çoxsaylı testlər və imtahanlar ilə müşayiət olunur, bu da şagirdlərin yorğunluğuna və stressinə səbəb ola bilər. |

**Cədvəl 1.3.1-in ardı**

| Beynəlxalq qiymətləndirmə nəzəriyyəsi | |
|---|---|
| Üstünlüklər | Catışmamazlıqlar |
| - Təhsildə beynəlxalq qiymətləndirmə proqramları müxtəlif ölkələrdən olan şagirdlərin nailiyyətlərini müqayisə etmək və təhsil sistemlərini qiymətləndirmək üçün istifadə olunur. | - Beynəlxalq qiymətləndirmə proqramları, ölkələrin müxtəlif mədəni, sosial və iqtisadi kontekstlərini tam nəzərə almır. Bu, bəzi ölkələrin və bölgələrin təhsil sistemlərinin zəif qiymətləndirilməsi ilə nəticələnir.<br>-Beynəlxalq qiymətləndirmə proqramları, milli tədris proqramlarının testlərə uyğunlaşması üçün təzyiq yarada bilir. Bu, təhsil sisteminin fərqliliyini və müxtəlifliyini azaldır.<br>-Beynəlxalq qiymətləndirmə proqramlarına qatılmaq və ya həyata keçirmək maliyyə vəsaiti tələb edir. Bu, bəzi ölkələr və təhsil sistemləri üçün çətinlik yaradır. |

Dördüncü paraqraf "Problemlə bağlı mövcud vəziyyətin öyrənilməsi" adlanır. Problemlə bağlı mövcud vəziyyətin öyrənilməsində məqsəd toplanmış məlumatlar əsasında çətinlikləri müəyyənləşdirmək, təhlillər əsasında problemləri öyrənmək, alternativ həll yolları üzrə təkliflər verməkdir.

Problem aşağıdakı tədqiqat sualları əsasında öyrənilmişdir:

- Müəllimlər formativ qiymətləndirmədən necə istifadə edir?
- Bəhs və bölmələr üzrə zəif mənimsəmələr necə aradan qaldırılır?
- Mövcud problemlər hansı istiqamətləri əhatə edir?

Tədqiqat kəmiyyət və keyfiyyət tədqiqat modeli olduğu üçün nəticələr məntiqi və statistik göstəricilərə əsaslanmışdır.

Məlumatların toplanma vasitəsi: Qeyd olunan tədqiqat sualları əsasında ibtidai siniflərdə müşahidə (10 sinifdə), müsahibə (21 müəllim), ibtidai sinif müəllimləri ilə anket sorğuları, 2, 3, 4-cü siniflərdə (13 şəhər və rayon məktəbi, 431 şagird) ana dili və riyaziyyat fənləri üzrə test yoxlama işləri aparılmışdır.

Ümumiləşdirilmiş nəticə:Aparılan araşdırmalar əsasında aşağıdakı müsbət cəhətləri qeyd etmək olar:

- yeni qiymətləndirmə texnologiyaları şagirdlərin inkişaf və tərəqqisini nəzarət altında saxlamağa imkan verir;
- qiymət və qiymətləndirmənin kiçik və böyük summativ əsasında aparılması şəffaflığı və obyektivliyi təmin edir;
- kiçik və böyük summativ qiymətləndirmə şagirdlər arasında həmçinin sağlam rəqabət mühiti formalaşdırır;
- cütlərlə və qruplarla iş prosesində şagirdlər bir-biri ilə əlaqə və empatiya qurur, qrup şəklində qiymətləndirməyə məsuliyyətli yanaşırlar.

Mövcud vəziyyətin öyrənilməsi məqsədilə aparılan araşdırmalar əsasında müsbət cəhətlərlə yanaşı aşağıdakı mənfi cəhətləri də qeyd etmək olar:

- ümumtəhsil məktəblərinin ibtidai siniflərində sözlə qiymətləndirmədən, 5 ballıq qiymətləndirmədən, I,II, III və IV səviyyəüzrə qiymətləndirmədən və 100 ballıq şkala əsasında aparılan elektron qiymətləndirmədən istifadə olunur.
- təlim nailiyyətlərinin qiymətləndirilməsi zamanı müəyyən edildi ki, mövzular üzrə zəif mənimsəmələr aradan qaldırılmır, çünki formativ qiymətləndirmənin tətbiqi mexanizmi düzgün həyata keçirilmir. Nəticədə ibtidai təhsil pilləsinin II siniflərində yüksək göstərici əldə edən şagirdlər III sinifdə orta, IV siniflərdə isə zəif göstərici nümayiş etdirir. Bu səbəbdən də ibtidai təhsil pilləsindən valideynlər repetitorlara müraciət etmək məcburiyyətində qalır;
- problemin məktəb təcrübəsində öyrənilməsi göstərdi ki, ibtidai təhsil səviyyəsində nəğmə, fiziki tərbiyə, texnologiya və s. kimi fənlər Azərbaycan dili və riyaziyyat fənləri ilə əvəz olunur. Kiçikyaşlı məktəblilərin zehni və fiziki yorğunluğu təlim nailiyyətlərinə mənfi təsir göstərir.

Dissertasiyanın ikinci fəsli **"Kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsinin mexanizmləri"** adlanır. Fəsil 3 paraqrafdan ibarətdir.

Birinci paraqraf "Ümumi təhsilin Dövlət standartları və qiymətləndirmə standartları" adlanır. Təhsilin keyfiyyətinin durmadan yüksəldilməsi və onun universallığına yönəlmiş dinamik inkişaf təhsil standartlarının hazırlanmasından və onların tətbiq olunmasından asılıdır ki, bu da paraqrafda öz əksini tapmışdır. Azərbaycanın təhsil standartı ilə yanaşı, Böyük Britaniya, Rusiya, ABŞ və Yaponiya təhsil standartları təhlil olunmuşdur. Qiymətləndirmə standartları isə təhsil standartlarının tətbiq prosesini izləməyə, təkmilləşdirməyə və inkişaf etdirməyə xidmət edir. Azərbaycanın Milli Qiymətləndirmə Konsepsiyası ilə yanaşı Almaniyanın, İsveçrənin, Böyük Britaniyanın, Fransanın qiymətləndirmə standartları da təhlil olunmuşdur.

Ümumiləşdirilmiş nəticə: Aparılan araşdırmalar əsasında qeyd etmək olar ki, hər bir ölkənin məzmun standartları məktəblilərdə aşağıdakı səriştəliliyin formalaşdırılmasını nəzərdə tutur (sxem 2.1.1.):

**Sxem 2.1.1**
**Məzmun standartları**




Qiymətləndirmə standartlarının məqsədi isə təhsilalanların və tədris prosesinin effektivliyini, keyfiyyətini ölçmək, təşkil etmək,

yaxşılaşdırmaq üçün aşağıdakı (sxem 2.1.2.) sistematik yanaşmanı təmin edir.

**Sxem 2.1.2**
**Qiymətləndirmə standartlarının məqsədi**




İkinci paraqraf "Kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinə təsir edən pedaqoji, fizioloji, psixoloji və sosioloji amillər" adlanır. Təlim prosesində pedaqoji, psixoloji, fizioloji və sosioloji amillərin nəzərə alınması həm şagird şəxsiyyətinin formalaşmasında, həm də onun təlim nailiyyətlərinin yüksəldilməsində əsaslı rol oynayır (cədvəl 2.2.1).

**Cədvəl 2.2.1**
**Təlim nailiyyətlərinə təsir edən amillər**

| | |
|---|---|
| Pedaqoji amillər: | - Müəllimlərin peşəkarlığı;<br>- Maddi-texniki baza;<br>- İdarəçiliyin təşkili;<br>- Davamiyyətin səviyyəsi;<br>- Təlim proqramlarının keyfiyyəti;<br>- Məktəbdənkənar müəssisələrin fəaliyyəti;<br>- Dərslik və dərs vəsaitləri ilə təminat;<br>- Müəllimlərin metodik vəsaitlərlə təminatı;<br>- Məktəbin ictimaiyyətlə əlaqəsi və valideynlərin maarifləndirilməsi. |

**Cədvəl 2.2.1-nin ardı**

| | |
|---|---|
| Fizioloji amillər: | - Uşağın yaşla əlaqədar fiziki inkişafı;<br>- Fiziki qüsurlar (görmənin, eşitmənin zəif olması);<br>- Zehni və fiziki yorğunluq . |
| Psixoloji amillər: | - Uşağın məktəbəhazırlığı;<br>- İndividual xüsusiyyətlər;<br>- Yaş xüsusiyyətləri ilə bağlı dəyişikliklər;<br>- - Qarşılıqlı münasibətlər (şagird-şagird, şagird-müəllim və müəllim-valideyn, pedaqoji kollektiv, ailə daxili münasibətlərin öyrənilməsi) |
| Sosioloji amillər: | - İctimaiyyətin təhsilə münasibəti;<br>- Ailələrin sosial statusu;<br>- Demoqrafik müxtəliflik (yaş, cins, etnik mənsubiyyət).<br>- Təbii mühit (kənd və şəhər, dağlıq və aran bölgələr) |

Ümumiləşdirilmiş nəticə: Bilik, bacarıq və vərdişlərin formalaşması ilə yanaşı müəllim qiymətləndirmə prosesini apararkən məktəblinin sosial, psixoloji və fizioloji inkişafını da təmin etməyə çalışmalıdır.

- pedaqoji baxımdan təhsilalanlarda yeni texnologiyalar əsasında bilik və bacarıqlar formalaşdırmalı, təlim prosesində yol verdiyi nöqsanları aşkarlayaraq, aradan qaldırmalı;

- psixoloji amillər baxımından uşaqların yaş xüsusiyyətlərini, təlim motivasiyasını, individual xüsisiyyətlərini və s. nəzərə almalı;

- fizioloji baxımdan müəllim özünün və məktəblinin sağlamlığının qeydinə qalmalı;

- müəllim sosial problemlərini təlim prosesinə yansıtmamalı, eləcə də məktəbli şəxsiyyətinə verdiyi dəyər onun sosial statusundan asılı olmamalıdır.

Üçüncü paraqraf“Təlim nailiyyətlərinin qiymətləndirilməsi prinsipləri” adlanır. Bu paraqrafda Beynəlxalq Şəbəkədə “Qiymətləndirmə proqramı”nda qiymətləndirmə prinsipləri, Amerika assosasiyasının təqdim etdiyi “Qiymət qoyanlar üçün rəhbər prinsiplər”və Azərbaycan təhsil sistemində də bütün növ qiymətləndirmənin apa-

rılmasında tətbiq olunan prinsiplərə əsaslanaraq təlim nailiyyətlərinin qiymətləndirilməsi prinsipləri sxem 2.3.1–də öz əksini tapmışdır.

**Sxem 2.3.1**

**Qiymətləndirmə prinsipi**




Ümumiləşdirilmiş nəticə: Qiymətləndirmə prinsipləri qiymətləndirmə məqsədinin həyata keçirilməsini təmin edən əsas meyardır. Ona görə də dünya təcrübəsində də qiymət verənlər üçün bu prinsiplərin düzgün tətbiqi və vaxtında həyata keçirilməsi olduqca əhəmiyyətli hesab olunur.

Üçüncü fəsil**"Kiçikyaşlı məktəblilərin təlim naliyyətlərinin qiymətləndirilməsinin imkan və yolları"** adlanır. Fəsil 3 paraqrafdan ibarətdir.

Birinci paraqraf "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" (TNQ) modeli" adlanır.

"Təlim nailiyyətlərinin qiymətləndirilməsi" modelinin məqsədi tədris prosesinin effektivliyini artırmaqdır. TNQ modeli şagirdlərin əldə etdikləri bilik və bacarıqların ölçülməsini, müəllimin özünüqiymətləndirməsini, təlimdə nailiyyət və inkişaf prosesinə dair məlumatlılığı təmin edir. Model aşağıdakı vəzifələri həyata keçirir:

- məzmun standartlarının mənimsənilmə keyfiyyətini ölçmək, şagirdlərin zəif və güclü tərəflərini müəyyənləşdirmək,
- şagird tələbatlarını öyrənməklə şagirdlərin öyrənmə motivasiyasını yüksəltmək;
- koqnitiv və emosional özünüqiymətləndirməni təmin etməklə müəllimin innovativ fəaliyyətini artırmaq;

- tədris prosesini yeniləmək və təkmilləşdirmək məqsədilə qərarların verilməsində təhsil menecerlərini məlumatlandırmaq.

Təlim nailiyyətlərinin qiymətləndirilməsi modeli təhsil sahəsində şagird və müəllim uğurlarını, tədrisin effektivliyini artırmaq üçün səmərəli vasitədir.

"Təlim nailiyyətlərinin qiymətləndirilməsi" modeli (TNQ) 3 istiqamətdə tətbiq edilir (model 3.1.1).

**Model 3.1.1**
**Təlim nailiyyətlərinin qiymətləndirilməsi**




TNQ modeli üzrə "Öyrətmə və öyrənmə keyfiyyətinin qiymətləndirilməsi" aşağıdakı metod və vasitələrlə həyata keçirilir (sxem 6):

**Sxem 3.1.2**
**Öyrətmə və öyrənmə keyfiyyətinin qiymətləndirilməsi**




TNQ modeli üzrə "Koqnitiv və emosional özünüqiymətləndirmə":

Koqnitiv özünüqiymətləndirmə şəxsin özünü daha yaxşı anlamasına və inkişaf etməsinə kömək edir. Emosional özünüqiymətləndirmə şəxsin sosial mühit və ictimai normalar çərçivəsində özünə

münasibətidir (cədvəl 3.1.2). Bu, həm psixoloji, həm də intellektual inkişaf üçün əhəmiyyətlidir.

**Cədvəl 3.1.1**

**Koqnitiv və emosional özünüqiymətləndirmə**

| **Koqnitiv özünüqiymətləndirmə** | **Emosional özünüqiymətləndirmə** |
|---|---|
| - Strateji plan<br>- Güclü və zəif tərəflər<br>- Davamlı peşəkar inkişaf | - Rəy tələb edin<br>- Fəaliyyət planınızı müzakirə edin<br>- Əməkdaşlıq edin |

TNQ modeli üzrə "Meta-qiymətləndirmə" məktəb direktorları tərəfindən həyata keçirilə bilər. Meta-qiymətləndirmə tədris prosesində çətinliklərin müəyyənləşdirilməsinə və aradan qaldırılmasına zəmanət verir. Meta-qiymətləndirmə (cədvəl 3.1.2.) mövcud vəziyyətə nəzarət etmək üçün köməkçi bir alətdir.

**Cədvəl 3.1.2**

**Meta-qiymətləndirmə**

| 1. Məqsəd | 2. Məlumat toplama | 3. Prinsiplər |
|---|---|---|
| Ehtiyacların və tələbatın öyrənilməsi | - müəllim<br>- məktəbli<br>- valideyn | - məqsədli;<br>- əlaqəli;<br>- obyektiv;<br>- şəffaf;<br>- sistemli;<br>- davamlı;<br>- qarşılıqlı əməkdaşlıq |
| 4. Metodlar | 5. Nəticələrin təhlili | 6. Yeniləmə və təkmilləşdirmə |
| - müşahidə;<br>- müsahibə;<br>- sorğu;<br>- açıq dərs | Təhlillər əsasında şagird tələbatını, müəllimin güclü və zəif tərəflərini müəyyənləşdirmək və hesabatlılığı təmin etmək | - Strateji hədəflərə və məqsədlərə müvafiq yeniləmə, təkmilləşdirmə |

Meta-qiymətləndirmə, tədris və öyrənmə sahələrində təlim nailiyyətlərinin qiymətləndirilməsini daha dəqiq, etibarlı və məqsədəuyğun etmək üçün vacibdir. Bu proses qiymətləndirmənin keyfiyyətini və effektivliyini analiz edir və dəyərləndirir.

Ümumiləşdirilmiş nəticə: "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" modeli məzmun standartlarının mənimsənilməsinə dair ətraflı məlumatların toplanmasına, qabaqcıl təcrübələrin öyrənilməsinə, yol verilən nöqsanların müəyyənləşdirilməsinə və müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xidmət edəcək.

İkinci paraqraf "TNQ modeli əsasında formativ qiymətləndirmənin tətbiqi texnologiyaları və rəqəmsallaşan qiymətləndirmə" adlanır.

Formativ qiymətləndirmə təlim prosesinin hər hansı bir mərhələsi üçünmüəyyən olunmuş nəticələr əsasında müəllimə tədris prosesini düzgün istiqamətləndirməyə və səmərəli təşkilə imkan verir. Formativ qiymətləndirmə holistik (sürətli qiymətləndirmə) və analitik (uzun müddət üçün müəyyən olunur və şagirdləri ayrı-ayrı sahələr üzrə qiymətləndirir) sxemlər vasitəsiylə həyata keçirilir. Bu sxemlər tələb olunan bacarıqları və onların qiymətləndirmə mexanizmini təsvir edir, etibarlı məlumat bazası kimi şagirdləri, valideynləri və maraqlı tərəfləri məlumatlandırır.

Ümumiləşdirilmiş nəticə:Formativ qiymətləndirmə təlim prosesində şagirdlərin və müəllimlərin fəaliyyətini ölçmək üçün tətbiq olunan bir metodologiyadır. Bu qiymətləndirmə metodologiyası öyrənmə və tərəqqi prosesinə daha yaxın nəzarət etməyi və effektivliyi artırmağı təmin edir. Bu baxımdan təlim nailiyyətlərinin qiymətləndirilməsi zamanı meyarlar, indikatorlar və deskriptorların düzgün tətbiqi mexanizmi olduqca əhəmiyyətlidir.

Üçüncü paraqraf "Eksperimentin təşkili, aparılması və ümumiləşdrilməsi" adlanır. Tədqiqatın əsas məqsəd və vəzifələrinin reallaşdırılması, eləcə də "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" modelinin səmərəliliyini yoxlamaq məqsədilə pedaqoji eksperiment təşkil olunmuşdur.

Eksperimentdə aşağıdakı işçi fərziyyələri irəli sürülmüşdür:

- müəllim və şagird arasında əks əlaqə TNQ modelinin "Öyrətmə və öyrənmə keyfiyyətinin qiymətləndirilməsi" əsasında qurularsa,

məzmun standartlarının mənimsənilməsində müvəffəqiyyət əldə olunar;

- tədris prosesində pedaqoji, fizioloji, psixoloji və sosioloji amillər, "Müəllimin koqnitiv və emosional özünüqiymətləndirməsi" təlim nailiyyətlərinə müsbət təsir göstərər;

- formativ qiymətləndirmə və şagirdin özünüqiymətləndirməsi düzgün inkişaf etdirilərsə,təlim prosesininkeyfiyyəti daha da yüksələr;

-"Təlim nailiyyətlərinin qiymətləndirilməsi" modeli təlim prosesində şagird və müəllimin uğurlarını, tədrisin effektivliyini artırar.

Müəyyənedici eksperimentin vəzifələri:

- ümumtəhsil məktəblərinin ibtidai siniflərində formativ qiymətləndirmənin tətbiqi mexanizmini müəyyənləşdirmək;

- bəhs və bölmələr üzrə məzmun standartlarının mənimsənilməsi prosesinin izləmək və qiymətləndirmək;

- öyrədənlər və öyrənənlərin dərs prosesində qarşılaşdıqları çətinlikləri müəyyən etmək.

**Cədvəl 3.1.3**

**Müəyyənedici eksperimentin nəticələri**

| İl | Siniflər | Eksperimentin mərhələləri | Şagirdlərin sayı | Qiymətləndirmə deskriptorları | | |
|---|---|---|---|---|---|---|
| | | | | Zəif | Orta | Yüksək |
| 2017 | 3 a kontrol siniflər | Müəyyənedici eksperiment | 58 | 21,2% | 47,6% | 31,2% |
| | 3 b eksperimental siniflər | Müəyyənedici eksperiment | 58 | 15,8% | 53, 6% | 30,6% |

Yüksək göstərici 3a sinfində 31,2%, 3b sinfində isə 30,6%, orta göstərici 3a sinfində 47,6%, 3b sinfində isə 53,6%, aşağı göstərici 3a sinfində21,2%, 3b sinifində isə 15,8% oldu.

Ümumiləşdirilmiş nəticə: Təlim nailiyyətlərinin qiymətləndirilməsi üzrə aparılan diaqnostik qiymətləndirmə və müşahidə zamanı müəyyənedici eksperiment aşağıdakı nəticələri vermişdir:

- müəllimlər formativ qiymətləndirmə texnologiyalarından istifadə etmirlər;

- mövzular üzrə zəif mənimsəmə tədris prosesində aradan qaldırılmır. Müəllimlər test yoxlama tapşırıqları verməklə kifayətlənirlər;

- şagirdlərin özünüqiymətləndirmə və qiymətləndirmə meyarlarına dair məlumatları yoxdur.

Öyrədici eksperimentin təşkili:

Bu kimi problemlərin aradan qaldırılması məqsədilə öyrədici eksperiment qiymətləndirmənin məqsədli, əlaqəli obyektiv, şəffaf, sistemli və davamlılıq prinsiplərinə əsaslanaraq "Təlim nailiyyətlərinin qiymətləndirilməsi" modeli əsasında aparılmışdır.

Öyrədici eksperimentin vəzifələri:

- modelin müddəalarının həqiqiliyinin isbat etmək;
- bəhs və bölmələr üzrə zəif mənimsəməni aradan qaldırmaq;
- "qiymət" və "qiymətləndirmə" anlayışını formalaşdırılmaq;
- özünüqiymətləndirmə və qiymətləndirmə arasında əlaqəni təmin etmək;
- müəllimin innovativ fəaliyyətinə dəstək olmaq;
- qiymətləndirmə motivasiyasını yüksəltmək.
- eksperiment zamanı fərdi, cütlərlə, qruplarla iş metodundan istifadə etməklə zəif mənimsəməni aradan qaldırmaq;
- vaxta qənaət etməklə qiymətləndirməni təşkil etmək;
- nəticələri ümumiləşdirərək təhlil etmək.

Eksperimentin ilk həftəsi müəllimlərə TNQ modelinə dair məlumatlar verildi (ümumən 10 gün olmaqla. 5 gün 176 nömrəli məktəbdə, 5 gün 246 nömrəli məktəbdə). Modelin məqsədi, mahiyyəti və tətbiqi mexanizmi eksperimental sinif müəllimlərinə izah olundu.

Eksperimentin on birinci günü: Eksperimental sinifdə məktəblilər 2 qrupa ayrıldı, hər iki qrupda 15 şagird iştirak etdi.Bir qrup saitlər, digər qrup isə samitlər qrupu adlandırıldı. Hər iki qrupa sait və samitlər haqqında ətraflı məlumatlar verildi. Tədris rollu oyunlar metodu vasitəsilə həyata keçirildi.

Dərsdə 5 dəqiqə ərzində sait və samitlərə dair əlavə məlumatlar verildi; 5 dəqiqə qiymətləndirmə motivasiyası yaradıldı; 20dəqiqə - tapşırıqların yerinə yetirilməsi; 5 dəqiqə qrupların qiymətləndirilmə-

si; 10 dəqiqə məktəblilərin özünüqiymətləndirməsi və ümumiləşdirmə (45dəqiqə).

Eksperimentin on ikinci günü: Qiymətləndirmənin şəffaflıq prinsipinin təmin edilməsi məqsədilə lövhəyə əllə çəkilmiş iki şəkil asdıq.



**Şəkil 1.**



**Şəkil 2.**

Şəkillərin hər ikisində otaq təsvir olunmuşdur, lakin şəkil 1-də təsvir olunan otaq səliqəli təsvir olunsa da əşyalar düzgün qeyd edilmədi. Şəkil 2-də isə əşyaların yeri düzgün təsvir olunsa da rəsm səliqəsiz çəkildi. Əvvəlcə şagirdlərdən cəmi ikisi səliqəsiz şəkli yüksək qiymətləndirdi. Qalan şagirdlər isə səliqəli çəkilmiş şəklə yüksək qiymət verdi.

Şərh: Buradan belə qənaətə gəlmək olar ki, siz tapşırıqları yerinə yetirərkən tapşırığın düzgün yerinə yetirilməsi ilə yanaşı səliqəli olmasına da fikir verməlisiniz. Çünki bəzən müəllimləriniz sizi qiymətləndirərkən haqsızlığa uğradığınızı düşünürsünüz. Amma bilməlisiniz ki, müəllim "qiymət" verərkən düzgünlüklə yanaşı səliqə-səhmana da önəm verir və qiymətləndirmədə bu və ya digər nüanslar nəzərə alınır. Bu şərh məktəblilərin özünüqiymətləndirməsində də əsaslı rol oynayacaq.

Eksperimentin on üçüncü günü: Şagirdlərə kiçik mətnlərdən ibarət vərəqələr paylandı və qeyd olundu ki, incə saitlər qrupu incə saitləri, qalın saitlər qrupu qalın saitləri bu mətnlərdə tapıb üzərindən xətt çəksinlər. Eyni zamanda sait və samitlərin xüsusiyyətlərini vərəqlərdə qeyd etsinlər. Tapşırıq tamamlandıqdan sonra dinlənildi və müəllimin iştirakı ilə qruplar qiymətləndirildi.

**Cədvəl 3.3.2**
**Özünüqiymətləndirmə**

| I səviyyə | II səviyyə | III səviyyə | IVsəviyyə |
|---|---|---|---|
| Digər yoldaşlarımla müqayisədə incə, qalın, dodaqlanan və dodaqlanmayan saitləri tam olaraq şərh edə bilmirəm | Digər yoldaşlarımla müqayisədə incə, qalın, dodaqlanan və dodaqlanmayan saitləri nisbətən şərh edirəm | Digər yoldaşlarımla müqayisədə incə, qalın, dodaqlanan və dodaqlanmayan saitləri əsasən şərh edirəm | Digər yoldaşlarımla müqayisədə incə, qalın, dodaqlanan və dodaqlanmayansaitləri asanlıqla şərh edirəm |
| | + | | |

Məktəblilərin özünüqiymətləndirməsi 49,2% oldu.

Eksperimentin on dördüncü günü: Hər bir şagirdə üç rəngli işıqfor (sarı, qırmızı, yaşıl) vərəqləri paylanır. Şagirdlərin nəyi mənimsəyib, nəyi mənimsəmədikləri öyrənilir. Mövzuya dair müəllim suallar verir və şagirdlər bu suala uyğun işıqfor işıqlarını qaldırır.

A kök və şəkilçilərin xüsusiyyətlərini tam anladım dedikdə, yaşıl kartlar

A kök və şəkilçilərin xüsusiyyətlərini nisbətən anladım dedikdə, sarı kartlar

A kök və şəkilçilərin xüsusiyyətlərini anlamadım dedikdə, qırmızı kartlar

Eksperimentin on beşinci günü: Şagird ehtiyaclarının öyrənilməsi məqsədilə tədris olunan mövzuya dair müəllim onlara fərdi şəkildə vərəqlər paylayır:

Mən ________________ anlayıram və mən izah edə bilərəm.

Mən hələ də başa düşmürəm ____________________

Mən_________mövzunu anladığıma həqiqətən əmin deyiləm.

Eksperimentin on altıncı günü: Müəllim şagirdlərə iki formada vərəqlər paylayır:

1-ci vərəq: Öyrənilmiş materialdan əsas fikirləri yazır və şagirdlərdən onları yekunlaşdırmağı xahiş edir.

2-ci vərəq: Öyrənilmiş materialdan başa düşmədiklərinizi müəyyənləşdirin və suallar hazırlayın.

Eksperimentin on yeddinci günü:Müəllim şagirdlərə suallar əsasında qısa inşa yazmağı xahiş edir:

- Bu gün nəyi öyrəndik?
- Sizə hansı suallar aydın deyil?

Eksperimentin on səkkizinci günü:Müəllim şagirdlərə yanlış bir fikir söyləyir. Sonra onlardan bu fikrə münasibət bildirməyi xahiş edir:

- Mən hiss etdim ki, bu fikir yanlışdır.
- Bu fikirlə tamamilə razıyam.
- Bu fikrə münasibət bildirməkdə çətinlik çəkirəm.

Ümumiləşdirilmiş nəticə: Öyrədici eksperiment nəticəsində eksperimental qrup üçün aşağıdakı nəticələr əldə olundu:

- Məktəblilərin bilik və bacarıqlarının keyfiyyəti artdı;
- Dərsə maraq hissi formalaşdı;
- Məktəblilər özlərini obyektiv qiymətləndirməyə nail oldular;

Şagirdlər qrup şəkildə qiymətləndirmə aparmaq bacarığını əldə etdilər. Formativ qiymətləndirmə texnologiyaların köməyilə müəllim şagirdlərin bilik və özünüqiymətləndirmə səviyyəsini, məzmun standrtlarını mənimsəmə səviyyəsini müəyyənləşdirmiş oldu.

Yoxlayıcı eksperimentin təşkili:

Yoxlayıcı eksperimentin köməyilə praktik məlumatlar ümumiləşdirildi. Nəticələrin ümumiləşdirilməsində statistik təhlildən istifadə olundu.Öyrədici eksperimentin nəticələrini yoxlamaq məqsədilə

kiçikyaşlı məktəblilər arasında test yoxlama işləri aparıldı. Nəticələr cədvəl 3.3.3-də öz əksini tapıb.

**Cədvəl 3.3.3**
**Yoxlayıcı eksperiment**

| İllər | Məktəblər, sinifl | Eksperimentin mərhələləri | Şagirdlərin sayı | Tapşırıqların yerinə yetirilmə səviyyəsi | | |
|---|---|---|---|---|---|---|
| | | | | Aşağı | Orta | Yüksək |
| 2017-2018 | Bakı şəhəri 246, 179 nömrəli məktəblər Kontrol siniflər (3 a) | Eksperiment-dən əvvəl | 58 | 21,2% | 48,6% | 30,2% |
| | | Eksperiment-dən sonra | 58 | 24,7% | 45,4% | 29,9% |
| 2017-2018 | Bakı şəhəri 246, 179 nömrəli məktəblər Ekspeimental siniflər (3 b) | Eksperiment-dən əvvəl | 58 | 15,8% | 52, 6% | 31,6% |
| | | Eksperiment-dən sonra | 58 | 11,6% | 56,1% | 32,3% |

Yoxlayıcı eksperimentin nəticələrinə əsasən kontrol siniflərdə aşağı səviyyə 21,2%-dən 24,7%-ə yüksəldi, orta səviyyə 48,6%-dən 45,4%-ə, yüksək səviyyə isə 30,2%-dən 29,9%-ə düşür.

Eksperimental siniflərdə aşağı səviyyə 15,8%-dən 11,6%-ə düşür, orta səviyyə isə 52,6%-dən 56,1%-ə, yuxarı səviyyə 31,6%-dən 32,3%-ə yüksəldi.

Şagirdlərin özünüqiymətləndirməsieksperimental siniflərdə 49,2%-dən 75,8%-ə, kontrol siniflərdə isə 35,3%-lə 35,6% arası dəyişdi.

Ümumiləşdirilmiş nəticə:Eksperimentin nəticələri tədqiqatın məqsədini, TNQ modelinin əsas müddəalarının həqiqiliyini, işlənmiş

metodların, qiymətləndirmə prinsiplərinin və formativ qiymətləndirmə texnologiyalarının doğruluğunu təsdiq edir. Eksperimentin mərhələlərini təhlil edərkən aydın olur ki, təlim nailiyyətlərinin qiymətləndirilməsi zamanı kiçikyaşlı məktəblilərdə qiymətləndirmə motivasiyasının yaradılması və özünüqiymətləndirmə təlimin keyfiyyətinə müsbət təsir göstərir.

Tədqiqat işində aşağıdakı **nəticələrə** gəlinmişdir:

Kiçikyaşli məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi prosesinin mahiyyəti üzə çıxarılaraq müəyyənləşdirildi ki, qiymətləndirmə texnologiyaları məzmun standartları üzrə planlaşdırılmış nəticələrin təmin olunması istiqamətində pedaqoji tədbirlərin effektivliyini artırır, müəllim-şagird əks əlaqəsinin inkişafını təmin edir. Şagirdlərin tədris zamanı əldə etdikləri bilik və bacarıqları ölçməyə, bu nəticələrə əsasən tədris prosesini təkmilləşdirməyə imkan verdi.

Təlim nailiyyətlərinin qiymətləndirilməsi zamanı pedaqoji, fizioloji, psixoloji və sosioloji amillərin öyrənilməsi müəllimin təlim fəaliyyətinin düzgün qurulması istiqamətində baza rolunu oynadı. Sağlam pedaqoji mühitin yaradılmasına, valideynlərin məktəblə əlaqəsinin daha da möhkəmlənməsinə, şagirdlərin təlim motivasiyasına müsbət təsir göstərdi.

Tədqiqat problemin belə bir cəhətini də tam aşkarlığı ilə nəzərə çatdırdı ki, əksər müəllimlər qiymətləndirilmə zamanı şagirdlərin özünüqiymətləndirməsinə lazımi diqqət yetirmir. Halbuki, belə bir mövqe şəxsiyyətin inkişafına əsaslı təsir göstərir. Məktəblidə özünüqiymətləndirmə nə qədər düzgün formalaşarsa, o, öz tələbatlarına dair daha düzgün və ətraflı məlumat verə bilir. Bu baxımdan təlim nailiyyətlərinin qiymətləndirilməsi müəllim və şagirdin özünüqiymətləndirmə imkanlarını genişləndirdi. Şagird nəyi öyrəndiyini və nəyi öyrənmək istədiyini təqdim etməklə müəllimin innovativ fəaliyyətinə təsir göstərdi.

Aparılan araşdırmalara əsasən kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsinin imkan və yolları "Təlim nailiyyətlərinin qiymətləndirilməsi modeli" (TNQ) əsasında təqdim olundu. TNQ modeli üzrə "Öyrətmə və öyrənmə keyfiyyətinin qiy-

mətləndirilməsi” şagird tələbatlarının öyrənilməsini və tədrisin optimallaşdırılmasını, “Koqnitiv və emosional özünüqiymətləndirmə” müəllimin özünü daha yaxşı anlamasını və inkişafını, “Meta-qiymətləndirmə” təlim nailiyyətlərinin qiymətləndirilməsinin daha dəqiq, etibarlı və məqsədəuyğun olmasını təmin etdi.

Tədqiqatın nəticələrindən irəli gələn **təklifləri** nəzərə çatdırmağı lazım bilirik:

1. Kiçikyaşlı məktəblilərdə öz bacarıqlarını və təlim nailiyyətlərini müəyyənləşdirməyə imkan verən özünüqiymətləndirmə bacarığı formalaşdırılmalıdır. Bunun üçün məktəbəhazırlıq qrup mərhələsində uşaqların özünüqiymətləndirmə bacarığını formalaşdıran xüsusi dərslər təşkil olunmalıdır. Nəticədə ibtidai təhsil səviyyəsində kiçikyaşlı məktəblilər təlim prosesini daha yaxşı anlayıb, öz güclü və zəif tərəflərini müəyyənləşdirə bilər.

2. Təkrar dərslərin tədrisi, təhsilalanların zəif mənimsədikləri mövzuları daha dəqiq başa düşmələri üçün mühüm bir vasitədir. Tədris planında nəzərdə tutulan təkrar dərslər dərsliklərdə tapşırıq və test tapşırıqlarından ibarətdir. Nəzərə alaq ki, tədris prosesində formativ qiymətləndirmə, kiçik summativ qiymətləndirmə də bu prosesi müəyyənləşdirir, lakin aradan qaldırmır. Zəif mənimsəmənin aradan qaldırılması istiqamətində əlavə dərs saatları artırılmalıdır ki, müəllimlər təkrar dərs saatlarında interaktiv metodlardan istifadə etməklə problemin həllinə nail olsunlar.

3. Qiymətləndirmənin son dərəcə vacibliyi, pedaqoji əhəmiyyəti ali təhsil müəssisələrində nəzərə alınmalıdır. Buna görə də pedaqoji fakultələrin tədris planına “Təlim nailiyyətlərinin qiymətləndirilməsi“, “Formativ qiymətənidirmənin tətbiqi texnologiyaları”, “Qiymət və özünüqiymətləndirmə” fənlərinin daxil edilməsi problemin nəzəri-metodik təminatına zəmin yaradar.

**Dissertasiya işinin əsas məzmunu və müddəaları Azərbaycanda və xarici ölkələrdə dərc edilmiş aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**

1.Mikayılova K.V. Şagird nailiyyətlərinin qiymətləndirilməsi tarixinə dair. Aspirantların və gənc tədqiqatçıların XIII Respublika elmi konfransının materialları. Bakı: Bakı Universiteti, 2009,s. 303-304

2. Mikayılova K.V.Qiymətləndirmənin tarixi inkişaf yolu. Bakı: BDU, Dil və ədəbiyyat, 2009, № 3, s. 225-226.

3. Mikayılova K.V.Pedaqoji qiymətləndirmənin nəzəri və metodoloji problemlərinin təhlili. Bakı: BDU, Dil və ədəbiyyat,2009, №5, s. 248-250

4. Mikayılova K.V. Şagird naliyyətlərinin qiymətləndirilməsi təhsilin keyfiyyətinin diaqnozu və monitorinqidir. Bakı: Məktəbəqədər və ibtidai təhsil, 2010, №1,s. 19-25.

5. Mikayılova K.V. Kiçikyaşlı məktəblilərin qiymətləndirməsində psixoloji aspektlərin nəzərə alınması. Bakı: Məktəbəqədər və ibtidai təhsil, 2010, №3, s. 77-81

6. Mikayılova K.V. Təhsil standartları və milli qiymətləndirmə sisteminin əsas mahiyyətinə dair. Doktorantların və Gənc tədqiqatçıların XV Respublika Elmi konfransının materialları. Bakı: Bakı Universiteti, 2011, s. 254-255.

7. Mikayılova K.V. Təlim nailiyyətlərinin qiymətləndirilməsi işinin mahiyyəti. Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji-psixoloji problemləri mövzusunda Beynəlxalq konfransın materialları. Naxçıvan, Mütərcim, 2011,s. 173-174.

8. Mikayılova K.V. Təlim nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji ədəbiyyatda təhlili. Bakı: ADU, Elmi xəbərlər, 2011, № 3, s. 381-389.

9. Mikayılova K.V. Məcburi köçkün məktəblərində təlim nailiyyətlərinə təsir edən amillər. Bakı: ARTİ, Elmi əsərlər, 2011, № 3,s. 72-76

10. Mikayılova K.V. Şifahi xalq yaradıcılığı nümunələrində və elmi pedaqogikada qiymətləndirmə. Bakı:ARTİ, Elmi əsərlər, 2011, № 4,s. 306-310.

11. Mikayılova K.V. Təlim nailiyyətlərinin yüksəldilməsində motivasiyanın rolu və pedaqoji qiymətləndirmə stimul kimi. Təhsil sistemində monitorinq və qiymətləndirmənin yeri mövzusunda Respublika elmi-praktik konfrans materialları. Bakı, Mütərcim, 2012, s. 180-183.

12. Mikayılova K.V. Kiçikyaşlı məktəblilərin qiymətləndirilməsində testlərdən istifadə. Bakı: ARTİ, Elmi əsərlər, 2012, № 3, s. 45-49

13. Mikayılova K.V. Şagird nailiyyətləri və təlim nailiyyətlərinin qiymətləndirilməsi məsələləri. Doktorantların və gənc tədqiqatçıların XX Respublika konfrans materialları. Bakı: 2016, s.77-81

14.Mikayılova K.V. Uşağın məktəbəhazırlıq və yaş xüsusiyyətlərinin təlim nailiyyətlərinin qiymətləndirilməsində, keyfiyyətində rolu. Şagird nailiyyətlərinin qiymətləndirməsi: məzmun və vasitələrin yaradılması problemləri mövzusunda Beynəlxalq elmi konfrans materialları. Bakı: 2016, s. 243-244.

15. Микаилова К.В.Теоретические и практические проблемы формативного оценивания общеобразовательных школах.Казахстан, Академия педагогических наук, 2017, №5,с. 20-25.

16. Mikayılova K.V. Formativ qiymətləndirmənin mahiyyəti və məqsədi. Bakı: ARTİ, Elmi əsərlər, 2019, № 3,s. 73-77

17. Микаилова К.В.«Инновации в образовании: ориентиры и тенденции». Материалы XII международной научно-методической конференции. Алмата, 2019, s. 31-34

18. Mikayılova K.V.Məktəbdaxili qiymətləndirmənin mahiyyəti və təlim nailiyyətlərinin qiymətləndirilməsi mexanizmləri. Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivləri – 2020mövzusunda Respublika elmi-praktik konfrans materialları. Naxçıvan:2020, s. 79-82

19. Mikayılova K.V. Akademik qiymətləndirmə və təhsil müəssisələrinin akkreditasiyası.Müasir təhsilin inkişaf strategilayarı: ugurlar və çağırışlarmövzusunda Respublika elmi-praktik konfrans materialları.Naxçıvan: 2021, **s.** 45

20. Mikayılova K.V., Muradlı T.H. Müəllim kadr hazırlığında rasionallıq.Bakı:Məktəbəqədər və ibtidai təhsil, 2022, №3, s. 61-70

21. Al Abbasi N.X., Muradlı T.H., Mikayılova K.V. Ortaokullarda kalite güvencesi: izleme ve değerlendirme. Bakı: Filologiya məsələləri, 2023, №11, s. 175-188

22.Cəbrayılov İ.H., Muradova N.Ş., Mikayılova K.V. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları (Metodik tövsiyə). Bakı, CN poligrafiya, 2024, 100 s. (s. 6-38)

Dissertasiyanın müdafiəsi 27 sentyabr 2024-cü il tarixdə saat 12.00-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1000, Bakı, Ü.Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 iyun 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.06.2024
Kağızın formatı: $60\times84^{1/16}$
Həcm: 38724
Tiraj: 100